



# Əyani tədris tam bərpa olunub




Ümumi təhsil müəssisələrinin V-XI sinifləri üzrə 29 sentyabr 2021-ci il tarixindən ənənəvi şəkildə tədrisə başlanılıb. Qeyd edilən siniflər üzrə proqnoz göstəricilərinə əsasən, 968230 şagird ənənəvi tədrisə başlayıb. İlk dərslər "Qarabağ Azərbaycandır!" mövzusuna həsr olunub.

Sentyabrın 29-dan ali, orta ixtisas və peşə təhsili müəssisələrində də əyani tədrisə start verilib. 2021-2022-ci tədris ilində ali təhsil müəssisələrinin bakalavriat pilləsi üzrə 171820 nəfər, magistratura pilləsi üzrə 16920 nəfər, orta ixtisas təhsil müəssisələrində 57693 nəfər, peşə təhsili müəssisələrində 24623 tələbənin təhsil alacağı proqnozlaşdırılır.

Qeyd edək ki, cari tədris ilində ümumi təhsil müəssisələrində ümumilikdə 1589829 şagird təhsil alacaq. Təhsil müəssisələrində 2021-2022-ci tədris ilində tədris və təlim-tərbiyə prosesinin təşkili Nazirlər Kabinetinin müvafiq qərarı əsasında sanitar-epidemioloji vəziyyətə uyğun həyata keçiriləcək.

